**AZƏRBAYCAN RESPUBLİKASI**

**ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

№ 09

Bakı şəhəri

"05" iyul 2017-ci il

**"İşaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarının təşkili Qaydaları"nın təsdiqi barədə" Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2012-ci il 21 iyun tarixli 07 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1175 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2012-ci il 21 iyun tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş "İşaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarının təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Ümumi şöbəsinə (L.Abdullayeva) tapşırılsın ki, bu Qərarın surətinin çoxaldılaraq Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.
4. Qərarın icrasına nəzarət Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü il 28 fevral tarixli 11/7-32 nömrəli əmri ilə müəyyən edilmiş kurasiya bölgüsünə əsasən həyata keçirilsin.

Ümumi şöbə

**Kollegiyanın sədri** — ... DÜZDÜR **Səlim Müslümov**

Azərbaycan Respublikasının Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının
"5" iyul 2017-ci il tarixli 09 nömrəli qərarı
ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2012-ci il 21 iyun tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş "İşaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarının təşkili Qaydaları"nda edilmiş dəyişikliklər**

Həmin Qərarla təsdiq edilmiş "İşaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarının təşkili Qaydaları" üzrə:

1. 3.3-cü bəndin üçüncü cümləsində "nağd yolla" sözləri "yalnız nağdsız qaydada" sözləri ilə əvəz edilsn;
2. 3.6-cı bənddə "nağd yolla" sözləri "yalnız nağdsız qaydada" sözləri ilə əvəz edilsn.